Birinci Türkoloji Qurultayda türk dilləri arasında və qədim dillərlə qohumluq problemi

Prof.dr.**MƏHƏRRƏM MƏMMƏDLİ**
Bakı Dövlət Universiteti
Orcid.org 0000-0003-0608-7226
mammadovmaharam@gmail.com

Xülasə. Məqalədə 1926-cı ildə Bakıda keçirilmiş Birinci Türkoloji Qurul tayda müzakirə olunan türk dillərinin bir- biri və qədim dillərlə qohumləri əlaqələri ilə bağlı məruzələr təhlil olunur və müasir tədqiqatlarla əlaqələndirilir.Qurultayda ta nınmış türkoloqlar A.Qenko, N.Poppe və B.Çobanzadənin məruzələri türk dillərinin bir-biri və monqol, tunqus-mancur, fin-uqor, yafəs dilləri ilə qohumluq əlaqələrinə həsr olunmuşdur.

Professor Bəkir Çobanzadənin "Türk ləhcələrinin yaxın qohumluğu haqqın da" məruzəsində türk dillərinin tarixindən bəhs olunur, "türk ləhcələri Orxon yazıla rından əvvəldə mövcud idi" fikri əsasında onların geneoloji qohumluğu əsaslan dırılmışdır. Sonrakı dövrlərdə türk dillərinin tarixinə dair araşdırmaların genişlənmə si, mənbələrin çoxalması, Çin mənbələrində hun dilinə aid nümunələrin aşkara çıxa rılması tədqiqatçılarda B.Çobanzadənin fikrinə inamı daha da qüvvətləndirmişdir. Orxon-Yenisey abidələrinin mükəmməl dil quruluşu, həmin dövrdə ədəbi dil funksi yası yerinə yetirməsi, tayfa dilləri elementlərinin müxtəlifliyi və funksionallığı türk dillərinin tarixinin qədimliyini şərtləndirir.

Altayşünas alim N.Poppenin "Altay dillərinin qarşılıqlı qohumluğu haqqında məsələnin müasir mövqeyi və tarixi" adı məruzəsində Ural-Altay nəzəriyyəsinin yaranması, tarixi inkişafı və XX yüzilliyin əvvəllərindəki tədqiq səviyyəsi və prob lemin inkişaf istiqamətləri müəyyənləşdirilmişdir. "Ural-Altay" və "Altay dilləri" nəzəriyyələrinə çoxlarının şübhə ilə yanaşdığı və ya fərziyyə hesab etdikləri bir dövr də bu problemin qurultayın gündəliyinə salınması, altayşünas alim N.Poppenin bu mövzuda ətraflı məruzə etməsi və buna dair qətnamənin qəbul olunması tədqiqat çılarda Altay dillərinin qohumluğuna inamı artırmış, problemin yeni metodlarla təd qiqinə təkan vermişdir.

Açar sözlər: Ural,Altay, genetik, türk, monqol, tunqus, mancur, fin, uqor

Giriş. Türk dillərinin mənşəyi, tarixi, dünya dilləri arasında mövqeyi ilə bağ lı yaranmış «Ural-Altay» nəzəriyyəsi meydana çıxdığı dövrdən indiyə qədər çox sayda alimlər tərəfindən fərqli fikir və mülahizələrlə inkişaf etdirilir. XX yüzilliyin əvvəllərinə kimi bu istiqamətdə tədqiqatlar geniş vüsət aldığından Birinci Türkoloji Qurultayda da bu problem müzakirə obyektinə çevrilmişdir. Qurultayda tanınmış türkoloqlar A.Qenko, N.Poppe və B.Çobanzadənin məruzələri türk dillərinin bir-bi ri və monqol, tunqus-mancur, fin -uqor, yafəs dilləri ilə qohumluq əlaqələrinə həsr olunmuşdur.

Tədqiqat. B.Çobanzadənin "Türk ləhcələrinin yaxın qohumluğu haqqında" məruzəsində türk dillərinin tarixindən bəhs edilir, diqqət "türk ləhcələri Orxon yazılarından əvvəldə mövcud idi" fikrinə yönəldilir. Buna səbəb kimi " Tükyulara mənsub Orxon yazılarının, heç şübhəsiz iki yerə : şərq və qərb, yaxud şimal və cə nub hissəyə bölünməsi və həmin yazılarda karluk, uyğur, tokoğuz, qırğız və b. türk tayfalarının adlarının çəkilməsi faktı və nəhayət Orxon yazılarının özlərinin dili yu xarıda deyilənləri təsdiq edir" (1,101) göstərilir. Sonrakı dövrlərdə türk dillərinin tarixinə dair araşdırmaların genişlənməsi, mənbələrin çoxalması, Çin mənbələrin də hun dilinə aid nümunələrin aşkara çıxarılması tədqiqatçılarda B.Çobanzadənin fikrinə inamı daha da qüvvətləndirdi. Orxon- Yenisey abidələrinin mükəmməl dil quruluşu, həmin dövrdə ədəbi dil (və ya dialektfövqü) funksiyası yerinə yetirməsi, tayfa dilləri elementlərinin müxtəlifliyi və funksionallığı türk dillərinin tarixinin qə dimliyini şərtləndirir. Orxon - Yenisey abidələrindən qədim yazılı mənbələrin olma ması türk dillərinin tarixinin məhdudlaşdırılmasına imkan yaratmışdır. "Sərəncamı mızda Orxon yazılarından başqa, digər mənbələr və tarixi sənədlər olmadığından, bu sahədə tədqiqatlarımız hələlik mümkünsüzdür. XIII əsrə qədər

"Kutadqu- bi lik", "Divani lüğəti - it- türk " və bir neçə mənbədən başqa bir şey yoxdur" (1,101). Orxon- Yenisey kitabələrindən əvvəl yazılı sənədlər kifayət qədər tədqiqatlara cəlb olunmasa da türk dillərinin dünyanın ən qədim dilləri ilə sıx əlaqələri linqvistik və tarixi faktlarla sübut olunur. Qurultayın keçirildiyi dövrdən indiyə kimi türk tayfa dilləri ilə bağlı ən mükəmməl mənbə M. Kaşğarinin "Divanü- lüğət- it türk" kitabı hesab olunur. M.Kaşğari "Divanı"nda türk tayfa dillərinin ilk təsnifini vermiş, dil lər arasında fonetik fərqlənmələri qeyd etmişdir. "Türk ləhcələrində leksikanın bü növrəsi vahiddir. Orada fərqlər yoxdur. Əgər fərq varsa da, yalnız müxtəlif hərflər də (səslərdə) və onların dəyişməsindədir" (1,102). Türk tayfa dillərindəki y~d~t ~z~u səs dəyişmələri M. Kaşğari tərəfindən müşahidə olunmuş, sonra da uzun əsr lər təsnifatların meyarı kimi götürülmüşdür. Türk dillərinin bir- biri və dünyanın qə dim dilləri arasında səs fərqlənmələri öncə leksik vahidlərdə təzahür etmişdir. Cə miyyətdə baş verən siyasi-iqtisadi hadisələr, miqrasiyalar, qohum və qeyri- qohum xalqlarla əlaqələr dillərin qarışması ilə nəticələnmişdir. "İstənilən türk diyarının, məsələn, Orta Asiya, Krım, Qafqaz, Volqaboyunun xəritəsini götürsək və kənd, dağ və çayların adlarını izləsək, görərik ki, bu adlar həm şərq, həm də qərbi türk, hətta monqol dil və ləhcələrinə xasdır" (1,105). Tük tayfa dillərinin dil element lərinin dünyanın qədim dilləri ilə oxşarlığı bu dillərin tarixinin Altay dövründən başlanmasını şərtləndirir. Aparılan araşdırmalardan aydın olur ki, Altay dövründə mövcud olmuş türk-monqol dil birliyi b.e.ə. II minilliyin ortalarında parçalanmış, bu birlik ayrıca türk və monqol dilləri ailəsi şəklində formalaşmışdır. Bu zaman kəsiyində monqol dilləri **r~l** dilləri, türk dilləri isə **z~ş** dilləri adlandırılır. Monqol dillərinə xas olan rotasizm və lambdaizm xüsusiyyətləri türk dillərindən qədim bul qar və müasir çuvaş dilində mhafizə olunmuşdur. Müq. et: *qız ~ xĕr, buzov ~ paru, qazan ~ xuran, uzun ~ vărăm, üzük ~ sĕrĕ, otuz ~ vătăr* və s.

Ən qədim türk dövrünün hun mərhəsinin dil xüsusiyyətləri Altay mərhələsi ilə müqayisədə daha aydın cizgilərlə özünü göstərir. Türk dillərinin roman, german, slavyan, qədim İran, Pamir, Çin dili ilə olan leksik paralelləri hun mərhələsinin xüsusiyyətlərini özündə qoruyur. Türk və monqol dilləri arasında morfoloji quruluş da müşahidə olunan yaxınlığı da bu əsasda izah etmək olar. Məsələn, monqol dilində təsirlik hal şəkilçisi *-ığ, -iq* qədim türk dilində təsirlik hal şəkilçisi (*-ığ, -ig, -uğ, -üg*) ilə eynidir. Monqol dilində feildən ad əmələ gətirən *-mi, -ğ, -s* şəkilçiləri türk dillərindəki *-ma, -me, -ıq, -ik, -uq, -ük* şəkilçiləri ilə funksiyaca eynidir. Yaxud monqol dilindəki peşə-sənət mənalı sözlər əmələ gətirən *-ci, -cin* şəkilçisi türk dillərində eyni funksiyalı *-çı, -çi, çu, -çü* şəkilçiləri ilə uyğun gəlir.

Altayşünas alim N.Poppenin «Altay dillərinin qarşılıqlı qohumluğu haqqında məsələnin müasir mövqeyi və tarixi» adı məruzəsində Ural-Altay nəzəriyyəsinin yaranması, tarixi inkişafı və XX yüzilliyin əvvəllərindəki tədqiqi səviyyəsi və prob lemin inkişaf istiqamətləri müəyyənləşdirilmişdir. «Ural-Altay» və «Altay dilləri» nəzəriyyələrinə çoxlarının şübhə ilə yanaşdığı və ya fərziyyə hesab etdikləri bir dövrdə bu problemin qurultayın gündəliyinə salınması, altayşünas alim N.Poppenin bu mövzuda ətraflı məruzə etməsi və buna dair qətnamənin qəbul olunması tədqiqat çılarda Altay dillərinin qohumluğuna inamı artırmış, problemin yeni metodlarla təd qiqinə təkan vermişdir. Altay dillərinin müqayisəli öyrənilməsində iki əsas dövr fərqləndirilir. Birincisi, Ural-Altay dövrüdür ki, bu dövr ərzində Altay dilləri ayrı-ayrı qruplar şəklində deyil, vahid böyük dil ailəsinin üzvləri olmuşdur. Ural-Altay dillərinin qohumluğu ideyası XVIII əsrdə İ.F.Stravlenberq tərəfindən qoyulub. Onun məşhur «Avropa və Asiyanın şimal-şərq hissəsi» adlı əsəri çap olunandan sonra bu nəzəriyyənin tədqiq dairəsi genişlənmişdir. İ.T.Stralenberq ümumi tatar dili adı altın da xalqların dillərini birləşdirərək 6 qrupda onların ilk təsnifatını vermişdir: 1) uyğurlar qrupu – burada fin-uqor, barabin və hun xalqları nəzərdə tutulur; 2) türk-tatar qrupu; 3) samodi qrupu. 4) monqol və mancurlar qrupu; 5) tunquslar qrupu; 6) Qara və Xəzər dənizləri arasında yaşayan tayfalar qrupu (1,109). N.Poppenin qənaətinə görə, İ.Stralenberqin təsnifatı sonrakılarla uyğunlaşmır, çünki təsnifatında elə xalqları birləşdirib ki, onlar müxtəlif qruplara aid edilməlidir. Doğrudan da son rakı tədqiqatlar nəticəsində, ümumi xüsusiyyətlərinə görə, fin-uqor samodi xalqları ilə, uyğurlar türk xalqları ilə, mancurlar tunqus xalqları ilə bir qrupda birləşdiril mişdir.

İ.Stralenberqdən 100 il sonra Danimarka alimi R.Rask tərəfindən Ural-Altay dillərinin qohumluğu məsələsi yenidən qaldırıldı. O, bu dilləri «skif dilləri» adlandı rır və onların sırasına Qrenlandiya, Amerikanın şimal hissəsi, Asiya və Avropa xalqlarının dillərini, İspaniyanın və Qalliyanın Hind-Avropa xalqlarının dillərini da xil edir. R.Raskın «skif dilləri» nəzəriyyəsi ilə M.Müllerin «Turan dilləri» nəzəriy yəsi üst-üstə düşür, lakin problemin qoyuluşuna görə bir-birindən fərqlənir. M.Mül lerə görə, Ural-Altay dilləri qrupuna siyam, Tibet, Cənubi Hind və Malay Arxipelağı dilləri aiddir. M.Müllerin özünə də bu dillərin bir-biri ilə qohumluq əlaqəsi zəif görünür və nəticədə «Turan dilləri ailəsi» terminə ehtiyatla yanaşır, «Turan dilləri qrupu» terminini uyğun sayır. Buna görə də turanizm çox məşhurlaşmamış və özünə çox az tərəfdar tapmışdır. N.Poppe «skif və Turan dilləri» nəzəriyyələrinin əhəmiy yətini qeyd etsə də, nöqsanlarını da göstərir. Nöqsanların olması obyektiv səbəblərlə əlaqələndirilir və bu dillərin tarixinin, eləcə də dil xüsusiyyətlərinin monqol dili istisna olmaqla, tam öyrənilməməsi ilə izah edir. Alman alimi V.Şott və onun müa siri fin alimi M.Kastren Ural-Altay nəzəriyyəsinin qülləsi hesab olunur. Bütün ömrünü Ural-Altay dillərinin tədqiqinə həsr edən M.Kastrenin tədqiqatı bu dillərin qohumluğunu iddia edən sələflərinin və müasirlərinin əsərlərindən fərqlənir. O, təd qiqatını xalq şivələrinin materialları əsasında aparmışdır. M.Kastrenin fikrinə görə, Hind-Avropa dilləri ilə müqayisədə Ural-Altay dilləri arasındakı oxşarlıq zəifdir. Lakin fin, samodi və türk dilləri arasındakı uyğunluqlar müqayisə oluna bilər. M.Kas tren Ural-Altay dillərinin tərkibinə fin, samodi, türk, monqol, tunqus dillərini daxil edərək, müqayisəli tədqiqatını fin-uqor və samodi dillərinin qohumluğu məsələsinin həlli ilə yekunlaşdırır. Ural-Altay dil ailəsinə yapon dilinin daxil edilməsinə münasi bət müxtəlifdir. Bu baxımdan N.Poppe M.Kastrenin fikrinə üstünlük verərək, yapon dilinin bu dil ailəsinə daxil edilməsini əsassız sayır, uzun illər araşdırmaların M.Kas trenin verdiyi tərkib üzərində aparıldığını xüsusi vurğulayır. Ural-Altay müqayisəli dilçiliyin inkişafında V.Şottun tədqiqatlarının böyük əhəmiyyəti vardır. O, Ural-Altay dillərinin lüğət tərkibindəki və morfoloji quruluşundakı uyğun xüsusiyyətləri aşkara çıxarmışdır. V.Şott fin-uqor dillərini qohumluq əlaqələrinə görə, fin və yaxud «çud» ailəsinə mənsub etmiş, «tatar» adı altında birləşən türk, monqol və tunqus dillərini onlara qarşı qoyur. Altayşünasların əksəriyyətinin fikrincə, V.Şott və M.Kas tren dövründə Ural-Altay qrupu iki yarımqrupa bölünür. Tədqiqatçılar bir tərəfdən türk, monqol və tunqus dillərini, digər tərəfdən isə fin-uqor və samodi dillərinin qarşı lıqlı münasibətlərini aydınlaşdırmağa çalışmışlar. N.Vinkler və bəzi tədqiqatçılar tunqus dillərini fin-uqor və samodi dilləri ilə əlaqələndirir və mancur dilini bu dillər ilə yapon dili arasında keçid hesab edərək, Ural-Altay dillərini samodi, fin-uqor, tun qus, yapon və türk-monqol qruplarına ayırırlar. Bu fikir yarandığı dövrdə alimlər tərəfindən tənqidə məruz qalmış və N.Poppe də məruzəsində bunun əleyhinə çıxış edərək, tunqus dillərinin türk və monqol dillərinə oxşar olmasını əsaslandırmışdır. Müasir dövrdə aparılan araşdırmalar N.Poppenin fikirlərinin doğruluğunu təsdiq ləyir. Bundan sonra Ural-Altay dilçiliyi tarixində ikinci dövr – Altay dövrü başlanır. Bu dövrdə türk, monqol, tunqus-mancur dillərinin qohumluğu ilə bağlı «Altay dil ləri» nəzəriyyəsi meydana çıxır. Altayşünaslığın ilkin mərhələsində türk dillərinə və dialektlərinə aid kifayət qədər praktik material toplanır, lakin monqol və tunqus danı şıq dilləri tam araşdırılmadığından, bu dillərin genetik və ya tipoloji qohumluğu haq qında qəti fikir söyləmək qeyri-mümkün olmuşdur. Buna görə də, N.Poppe məruzə sində ilk altayşünas alimlərin fəaliyyətini qeyri-kafi qiymətləndirir. Məruzədə Altay dillərinin əlaqələrinə dair tədqiqatların üç istiqamətdə aparılması tövsiyə olunur: 1) türk-monqol əlaqələri; 2) monqol-tunqus əlaqələri; 3) türk-tunqus əlaqələri (1,113). Türk-monqol qohumluq münasibətlərinin müəyyənləşdirilməsində monqol dilinin ləhcələrinin öyrənilməsinin mühüm əhəmiyyəti vardır. Bu ləhcələrin tədqiqində Q.Ramstedtin xüsusi rolu vardır. Q.Ramstedt öncə fonetik fərqlənmələri əsas götür müş, monqol və türk dilləri arasında rotasizm və lambadizm hadisələrini düzgün işıq landırmışdır. Altayşünaslıqda monqol dilinin türk dilinə, çuvaş dilinin hər iki dilə münasibəti müxtəlif şəkildə izah olunur. Y.Nemet türk, monqol və çuvaş dillərinin tarixində 4 əsas mərhələ qeyd etmişdir: 1) ibtidai qohumluq dövrü; 2) çuvaş-monqol dillərinin qarşılıqlı təsir dövrü; 3) tatar-monqol dillərinin qarşılıqlı təsir dövrü; 4) monqol dilindən alınmış

sözlərin yakut dilində işlənməsi dövrü. Monqol və çuvaş dillərindəki «r» və «l» səslərinin türk dillərindəki «z» və «ş» səslərinə uyğunluğu (1,115). Y.Nemetin fikrincə, bu dillərin birgə inkişafının nəticəsidir. Alim güman edir ki, monqol və türk dillərinin vəhdəti dövrünün ardınca, monqol-çuvaş dillərinin vəhdəti dövrü başlanır. Bir sıra türkoloqlar kimi, N.Poppe də bu fikrə etiraz edərək bildirir ki, çuvaş dilinin fonetik və morfoloji quruluşu türk dilləri kimi tarixi inkişaf yolu keçmişdir. Buna görə də monqol-türk-çuvaş dillərinin vəhdəti dövrünün ardın ca monqol-çuvaş deyil, türk-çuvaş dillərinin vəhdəti meydana çıxmışdır. Digər tərəf dən monqol və çuvaş dilləri arasında elə bir yaxınlıq tapmaq olmaz ki, bunun əsasın da bu dillərin birgə inkişafını təsdiq etmək mümkün olsun. Sonda N.Poppe Q.Rams tedtin fikrini müdafiə edərək, türk və çuvaş dillərinin ulu dilin iki şivəsi – r, l şivəsi və z, ş şivəsi kimi tanındığı qənaətinə gəlir (1,116). Altay dilləri arasında tunqus dillərinin mövqeyi mübahisəlidir. Bəzi alimlər tunqus dillərini türk və monqol dilləri ilə genetik qohum hesab etsə də, bəziləri bunu inkar edirlər. Monqol dili ilə müqayi sədə türk və tunqus dilləri arasındakı fərqlənmələrin üstünlüyü alimlərdə bu dilin Altay dilləri ilə qohumluğunda şübhələr yaradır. Bu fərqlər tunqus dillərinin Altay dil ümumiliyindən ayrılan ilk dil olması ilə izah oluna bilər ki, tədqiqatçılar bu ayrılmanı e.ə. V-IV minilliyə aid edirlər. Uzun əsrlər boyu tunqus dilləri müstəqil şəkildə inkişaf etmiş, müxtəlif dillərin təsirinə məruz qalmışdır. Bu baxımdan dillə rin müasir səviyyəsində fərqlərin çoxalmasını təbii qəbul etmək lazımdır. N.Pop penin məruzəsində belə bir fikir də yürüdülür ki, tunqus dili türk dilindən daha çox monqol dilinə yaxındır. Monqol və tunqus dillərinin bəzi fonetik uyğunluqları bu fik ri söyləməyə əsas verir. İkinci mühüm əlamət kimi tunqus dili monqol dilinə nisbə tən qədim hesab edilir. Araşdırmalardan aydın olur ki, tunqus dili türk və monqol dilləri ilə qohumdur və onlarla birlikdə bir ulu dilə mənsubdur. Məruzənin sonunda altayşünaslığın nailiyyətləri qarşıda duran vəzifələri, xüsusilə tunqusşünaslığın gələ cək problemləri şərh olunur.

Birinci Türkoloji Qurultaydan sonra altayşünaslıq sahəsində xeyli mükəm məl tədqiqatlar meydana çıxmışdır. Altay dillərinin genetik qohumluğu ideyası ta rixi inkişafı boyu fərziyyədən-nəzəriyyəyə, sonda yeni elm sahəsinə çevrilib. Araş dırmalar artdıqca Altay dillərinin qohumluğunu iddia edən alimlərin sırası da geniş lənməkdədir. İndi altayşünas alimlər 2 qrupa bölünüb: 1) genetik qohumluğun tərəf darları; 2) tipoloji uyğunluğa əsaslananlar. Birinci istiqamət Q.Ramstedtin tədqiqat larında öz əksini tapmışdır. Q.Ramstedtin mövqeyi B.Y.Vladimirsov, E.D.Poliva nov, N.A.Baskakov və b. alimlər tərəfindən müdafiə olunur. Bu alimlərin fikrincə, türk, monqol və tunqus-mancur xalqları vahid Altay xalqından törəmişlər. Praaltay dilinin parçalanmasından sonra bu dillər müstəqil inkişaf yoluna qədəm qoymuş dur. Altayşünaslıqda ikinci istiqamət – Altay dillərinin tipoloji oxşarlığı barədə V.Kotviç, L.Liqeti, G.Klouson, Q.D.Sanjeyev, A.M.Şerbak, B.Serebrennikov, Q.Dörfer və b. araşdırmalarında irəli sürülür. Onların nəzəriyyələrinin əsas mahiy yəti ondan ibarətdir ki, bizim eadan əvvəl Çinin şimalında yaşamış türk, monqol, tunqus-mancur tayfaları tipoloji cəhətdən oxşar dildə müxtəlif şəkildə danışmışlar. İnkişafın sonrakı prosesində bu tayfalar qruplara ayrılmış, onların dilləri yeni subs tratların təsiri ilə spesifik xüsusiyyətlər kəsb etmişdir. V.Kotviçə görə, etnik qrupla rın müxtəlif dilləri arasında yaranmış sıx əlaqə nəticəsində monqol və tunqus-man cur dillərində türk alınmaları əmələ gəlmiş və ya həmin dillər türk dillərinə təsir göstərmişdir. Bütün bunlara baxmayaraq, V.Kotviç belə güman edir ki, qədim dövrdə bu üç dil qrupu vahid dildən törəyib, sonralar müxtəlif substratların təsiri ilə ayrılaraq türk, monqol və tunqus-mancur dilləri kimi formalaşmışdır (2,47). Gö ründüyü kimi, istər genetik, istərsə də tipoloji qohumluq nəzəriyyələrinin tərəfdar ları Altay dillərinin ümumiliyini qəbul etsələr də, bunu müxtəlif baxımdan izah edirlər.

Görkəmli alim A.Genko "Türk dillərinin yafəs dillərə münasibəti haqqında" mövzusunda məruzə ilə çıxış etdi. Alim məruzəsində türk dilləriilə yafəs dilləri ara sında mövcud mübahisəli məsələlərə aydınliq gətirdi. Yafəs dillərinin Qafqazın dağlı dilləri, Zaqafqazıya dilləri, gürcü və onunla qohum olan dillər adı ilə tanınma

sı və Qafqazdan öncə Ön Asiya yaşamaları barədə fikirləri şərh edir. Türk dilləri ilə əlaqələrin Ön Asiyada, eləcə də Orta Asiya və Türküstan istiqamətində baş ver məsi ilə bağlı faktların

olduğunu bildirir. Hər iki dilin daşıyıcıları hazırda qonşu ərazilərdə məskunlaşması tarixən əlaqələrin olmasını göstərir. Lakin bu məskunlaş ma müxtəlif dövrlərdə baş vermişdir, Şimali Qafqazda türklərin məskunlaşması monqol dövrünə, yəni XIII- XIV əsrləri, Cənubi Qafqazda isə daha qədim dövrləri əhatə edir. Türklərin Qafqaz xalqları ilə təmasları VI əsrdən başlayır, bu əlaqələr hunlarla bağlı baş verir. "Hunlar türk xalqı olmuş və onlar elə həmin tarixi səhnədə meydana çıxan daha sonrakı türklərin sələfi olublar" (1,122). Türk dillərinin mon qol və tunqus dilləri ilə oxşar cəhətləri yafəs dilləri ilə genetik qohumluğunu təkzib edir. Bu dillər arasında preqrammatik qohumluğun olması üçün də faktlar kifayət etmir. Preqrammatik qohumluq fonetik oxşarlıqdan əlavə, qrammatik uyğunluğu da özündə ehtiva edir. Dillər arasında leksik və fonetik oxşarlıqla müqayisədə qrammatik uyğunluq qohumluğun əsas əlaməti hesab olunur. Leksik oxşarlıq qeyri - qohum dillər arasında da mövcud ola bilər. Qrammatik uyğunluq isə qohum dillər arasında mövcud olur. Müasir türk və Qafqaz dillərində sıx əlaqələr nəticəsində kifayət qədər leksik oxşarlıqlar yayılsa da, qrammatik uyğunluqlar təsadüfi xarak ter daşıyır. Sonrakı dövrlərdə bu istiqamətdə aparılan araşdırmalara görə hər iki dil ailəsi arasındakı qohumluq tipoloji uyğunluq səviyyəsindədir.

Nəticə. Araşdırmalardan aydın olur ki, türk dillərinin bir -biri ilə əlaqəsi ge netik qohumluq olub, tarixən vahid türk dilinin regional formalara bölünməsi və sonrakı mərhələdə müasir türk dillərinin əmələ gəlməsi nəticəsində formalaşmışdır. Ural- Altay dillərinə münasibət müxtəlifdir. Tədqiqatçılardan Ramstedt, M.Kas tren, V. Şott, N.Poppe, N. Baskakov və b. türk və Altay dillərinin əlaqələrini gene tik, V. Kotviç, A.Şerbak, B.Serebrennikov və b. tipoloji qohumluq hesab edirlər. Türk dilləri ilə yafəs dilləri arasında əlaqələrin yaranmasında ərazi amili əsas oldu ğundan bu dillər arasında leksik oxşarlıqlar mövcuddur. Buna görə də türk və yafəs dilləri arasında əlaqələr tipoloji uyğunluq səviyyəsindədir.

Ədəbiyyat

1. 1926-cı il I Bakı Türkoloji Qurultay (Ruscadan tərcümə, ön söz və şərhlərin müəllifləri: K.V.Nərimanoğlu, Ə.Ağakişiyev), Bakı, 2006.
2. Баскаков Н.А. Алтайская семья языков и ее изучение. Москва: Наука, 1981.

Özet

BİRİNCİ TÜRKOLOJİ KURULTAYI'NDA TÜRK LEHÇELERİ ARASINDA VE KADİM DİLLERLE AKRABALIK PROBLEMİ

Prof. Dr. Meherrem Memmedli
Bakü Devlet Üniversitesi, Türkoloji Bölümü Başkanı (Azerbaycan)
mammadovmaharam@gmail.com

Türk dillerinin kökeni, tarihi ve dünya dilleri arasındaki konumu ile ilgili ortaya çıkan "Ural-Altay" teorisi, ortaya çıktığı dönemden günümüzedek çok sayıda bilim insanı tarafından farklı görüş ve değerlendirmelerle ele alınmıştır. 20. yüzyılın başlarına kadar bu alandaki araştırmalar geniş çapta sürdürüldüğünden, 1926 yılında Bakü'de gerçekleştirilen Birinci Türkoloji Kurultayı'nda bu konu da tartışma gündemine alınmıştır. Kurultayda tanınmış Türkologlar A. Genko, N. Poppe ve B. Çobanzade'nin bildirileri, Türk dillerinin birbirleriyle ve Moğol, Tunguz-Mançu, Fin-Ugor, Yafes dilleriyle olan akrabalık ilişkilerine odaklanmıştır.
Prof. Dr. Bekir Çobanzade'nin "Türk Lehçelerinin Yakın Akrabalığı Üzerine" başlıklı bildirisinde Türk dillerinin tarihine değinilmiş, "Türk lehçeleri Orhun yazıt larından önce de mevcuttu" düşüncesi ileri sürülerek, bu lehçelerin genetik akraba lığı temellendirilmiştir. Takip eden dönemlerde Türk dilleri tarihi üzerine araştır maların genişlemesi, kaynakların çoğalması ve Çin kaynaklarında Hun diline ait örneklerin ortaya çıkarılması, B. Çobanzade'nin görüşüne olan güveni daha da artır mıştır. Orhun-Yenisey yazıtlarının gelişmiş dil yapısı, dönemin edebi dil işlevini üstlenmesi, kabile dillerine ait çeşitli unsurların çeşitliliği ve işlevselliği Türk dilleri nin köklü geçmişini ortaya koymaktadır.

Altayist N. Poppe'nin "Altay Dillerinin Karşılıklı Akrabalığına Dair Mese lenin Güncel Konumu ve Tarihi" başlıklı bildirisinde Ural-Altay teorisinin ortaya çıkışı, tarihî gelişimi, 20. yüzyıl başlarındaki araştırma durumu ve konunun gelişim yönleri değerlendirilmiştir. "Ural-Altay" ve "Altay Dilleri" teorilerine pek çok kişi kuşkuyla yaklaştığı ya da varsayım olarak gördüğü bir dönemde, bu meselenin kurul tay gündemine alınması, Altayist N. Poppe'nin bu konuda kapsamlı bir bildiri sun ması ve buna ilişkin bir kararın kabul edilmesi, araştırmacılar arasında Altay dilleri nin akrabalığına olan inancı güçlendirmiş, bu alandaki araştırmaları yeni yöntem lerle ilerletmiştir.
Anahtar Kelimeler: *Ural, Altay, genetik, Türk, Moğol, Tungus, Mançurya, Fin-Ugor.*

The Problem of Genetic Relations Between Turkic Languages and Ancient Languages at the First Turkological Congress

Abstract. The article analyzes the papers presented at the First Turkological Congress held in Baku in 1926 concerning the genetic relationships among the Turkic languages and their connections with ancient languages, and correlates these discussions with modern research. At the Congress, well-known Turkologists A. Genko, N. Poppe, and B. Chobanzadeh delivered papers devoted to the genetic relations of Turkic languages with one another as well as with Mongolic, Tungusic-Manchu, Finno-Ugric, and Japhetic languages.

In Professor Bekir Chobanzadeh's paper "On the Close Affinity of Turkic Dialects," the history of the Turkic languages is examined; the idea that "Turkic dialects existed even before the Orkhon inscriptions" is highlighted, and their genealogical affinity is substantiated. In subsequent decades, the expansion of research on the history of Turkic languages, the increase in available sources, and the discovery of the Hunnic language examples in Chinese records further strengthened confidence in Chobanzadeh's views. The highly developed linguistic structure of the Orkhon–Yenisei inscriptions, their functioning as a literary language of the period, as well as the diversity and functionality of tribal dialect elements, attest to the antiquity of the history of Turkic languages.

In Altaic scholar N. Poppe's paper titled "The Contemporary Position and History of the Problem of Mutual Affinity of the Altaic Languages," the emergence of the Ural–Altaic theory, its historical development, and the level of research in the early 20th century are examined, and the directions for further study of the problem are identified. At a time when many scholars approached the "Ural–Altaic" and "Altaic languages" theories with skepticism or regarded them merely as hypotheses, the inclusion of this issue on the agenda of the Congress, Poppe's detailed report on the topic, and the adoption of a resolution on the matter strengthened researchers' confidence in the affinity of Altaic languages and stimulated new methodological approaches to the study of the problem.

Keywords: Ural, Altaic, genetic, Turkic, Mongolic, Tungusic, Manchu, Finno-Ugric